

Mövlud Teymur

# Göyçay çinarları

Bakı
Şirvannəşr
2013

**MÖVLUD TEYMUR**

Az - 272322

# GÖYÇAY ÇİNARLARI

*(şeirlər və poema)*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı**
**Şirvannəşr**
**2013**

Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)
**Şirvannəşr, 04 (1624) 2013**
Naşir **Qəşəm İsabəyli**

---

Redaktoru
**Tovuz Teymurova**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Mövlud Teymur**
**Göyçay çinarları**
**Bakı-Şirvannəşr-2013**
**76 səh.**

*Şair Mövlud Teymurun bu kitabı Azərbaycanın xalq şairləri Rəsul Rza, Nigar Rəfibəyli, şair Əli Kərim, xalq yazıçısı Anar, xalq şairi Fikrət Qoca, akademik Bəkir Nəbiyev və xalq artisti Habil Əliyevə həsr olunmuşdur. Müəllif bu sənətkarların bədii obrazını layiqincə yarada bilmişdir.*

*İnanırıq ki, bu kitab oxucu rəğbətini qazanacaq.*

**83.3 Az (2)**
**M ---------------**
**054**

© ***M.Teymur, 2013***

---

**Ünvan: Bakı-Az 1004, Badamdar şos. 77**
**Tel: 492-92-27, 492-93-72, (050)316-23-40**

***Bu kitab Azərbaycanın böyük xalq şairləri Rəsul Rzanın və Nigar Rəfibəylinin əziz xatirəsinə ithaf olunur***

**Mövlud Teymur**

## Azərbaycan şairləri

Kainatı vəsf eləyir,
Azərbaycan şairləri.
Bu həyatı vəsf eləyir,
Azərbaycan şairləri!

Şən elədi, kef elədi,
Sevgi, vəfa, eşq dilədi.
Nur payladı, nur çilədi,
Azərbaycan şairləri!

Nəsimidi,Füzulidi,
Sabir, Səhhət, o Hadidi.
Rəsul Rza, Şeyx Caviddi.
Azərbaycan şairləri!

Tükənməyən şərvətimiz,
Vüqarımız, qüdrətimiz.
Vurğun adlı şöhrətimiz,
Azərbaycan şairləri!

Nigar xanım,Əli Kərim,
Həm sevincim, həm kədərim.
Unudulmaz nəğmələrim,
Azərbaycan şairləri!

Bəkir, Habil, Fikrət Qoca,
Bir-birindən daha uca.
Biri alim, biri xoca,
Azərbaycan şairləri.

Elim Şirvan oğlu, qızı,
Ağzımızın dadı, duzu.
Yaşatsınlar arzumuzu,
Azərbaycan şairləri!

Dünya bizə əl eləyir,
Şeir, sənət yurdu deyir.
Bir ordudur, ordu deyir,
Azərbaycan şairləri!..

2004

## Zirvədi

### Söz sərkərdəsi Rəsul Rzaya

Az yaşadı, çox yazdı, çox yaratdı,
Bəd köksünə sözdən min ox yaratdı.
Qala tikdi, möhtəşəm dağ ucaltdı,
Sinə gərdi qasırğaya, tufana!

Əl yetməyən, ün çatmayan zirvədi,
Ceyranlara, cüyürlərə bölgədi.
Canavara zülmət gecə, kölgədi,
Al günəşli, nurlu gündür aslana!

Meşə burda, orman burda, çöl burda,
Ən ətirli çiçək burda, gül burda,
Sərinlədən, əsən külək, yel burda,
Bir cənnətdir, bir behiştdir insana!

Vələs, çinar, palıd, küknar bir candı,
Söz-söhbəti bəli, sağ ol, haycandı.
Deyirəm ki, bu bir gözəl cahandı.
Düşmüşəm də ağlasığmaz cahana!

Mövlud sərgi salonudur söyləyir,
Nə əvvəli, nə sonudur söyləyir.
Ürəklərə yatan budur söyləyir,
Yolunuzu salın, dostlar, bu yana!

2004

## Göyçay çinarları

Duruşu məğrur olub,
Yeləni vüqar olub.
Arzusu bahar olub,
Göyçay çinarlarının!

Hər yayda kölgəlidi,
Bir sərin ölkəlidi.
Şan-şöhrəti  bəllidi,
Göyçay çinarlarının!

Boyu Rəsul Rzadır,
Hamıya əl uzadır.
Meyli sözə, sazadır,
Göyçay çinarlarının!

Gözəllik nişanıdı,
Gəncə-Göyçay yanıdı.
Nigar şeri  sanıdı,-
Göyçay çinarlarının!

Doğma, mehribandılar,
Ellə canhacandılar.
Duyğusu qəlbə dolar,
Göyçay çinarlarının!

Xoş sözdə, deyimdədi,
Yamyaşıl geyimdədi.
Yurdu ürəyimdədi,
Göyçay çinarlarının!

2005

## Bir  ocaqdan üç sənətkar çıxıbdı

Bir ocaqdan üç sənətkar çıxıbdı,
Dərya olub, dəniz olub axıbdı.
Düşmənləri yandırıbdı, yaxıbdı,
Sevindirib, güldürübdü dostları!

Ömürləri olub gündən, işıqdan,
Dözümləri  sərt qayadan, Şahdağdan.
Saflıqları bəyaz qardan, zanbaqdan,
Doğma olub, əziz olub adları!

Mövlud Teymur üç çinardı fəxr edir,
Gül, çiçəkli yaz, bahardı fəxr edir.
Azərbaycan, bir diyardı fəxr edir,
Əbədidir Odlar yurdu, yurdları!

2009

## Girib canı dolaşdım

Düz-dünyanı dolaşdım,
Hər bir yanı dolaşdım.
Girib canı dolaşdım,
Odlar yurdunu gördüm!

Arzu, diləkli idi,
Odlu, ürəkli idi.
Duzlu-çörəkli idi,
Dolu buğdanı gördüm!

Sərvət aşıb-daşırdı,
Dövlət aşıb-daşırdı.
Sənət aşıb-daşırdı.
Rəsul Rzanı gördüm!

Dostları çağırırdı,
Nigarı çağırırdı.
Uca dağlara dəyən
Vüqarı çağırırdı,
Qədim Ozanı gördüm!

Məhəbbət ümman idi,
Sədaqət ümman idi.
Din-hörmət ümman idi.
Oruc tutanı gördüm!

Allah-Kərimdi dedim,
Dərdi-sərimdi dedim.
Bura yerimdi dedim,
Tanrı  yazanı gördüm!

2005

## Yaşayır
### Xalq şairi Rəsul Rzaya

Rəsul Rza razı qaldı həyatdan,
Oxuduğu azı qaldı həyatdan.
O kam aldı, ilham aldı həyatdan.
Ona görə şeri, sözü yaşayır,
Sözlərində həyat özü yaşayır!

Dünya görür, aləm duyur,ərz anır,
Dağ-daş görür, dərə duyur, düz anır.
Şərəfinə, dost, dayanma süz anır,
Şənlik özü,  büsat özü yaşayır,
Sözlərində həyat özü yaşayır!

Mərdlik nədir, dözüm nədir, sərt nədir,
Həqiqəti  insanlara öyrədir.
Yalanları, böhtanları göynədir,
Safın- safı, düzün -düzü yaşayır,
Sözlərində həyat özü yaşayır!

Sevgi, vüsal, məhəbbətdir ayəsi.
Ülviyyətdir, sədaqətdir qayəsi.
Gözəllikdən yoğrulubdur mayəsi,
Arzu özü, murad özü yaşayır,
Sözlərində həyat özü yaşayır!

Mövlud Teymur  haray salır, hayqırır,
Vicdan deyir, qeyrət deyir, güc, qürur.
Azman deyib, şerinə vurur möhür:
Sənət özü, şöhrət özü yaşayır,
Sözlərində həyat özü yaşayır!

2007

## Dövlət, sənət

Biri şair, biri  dövlət adamı,
Biri  hörmət, biri izzət adamı.
Biri şərəf, biri şövkət adamı, -
Heydər oldu, Rəsul oldu dünyada,
Cığır oldu, bir yol oldu dünyada!

Hər ikisi haqqa tərəf yollandı,
Bu gedişlə nə yoruldu, usandı.
Ancaq çatıb zirvələrdə dayandı, -
Şahin oldu, qartal oldu dünyada,
Arzu oldu, amal oldu dünyada!

Hər ikisi sənətiylə ucaldı,
İlhamını ana vətəndən aldı.
Ağlı ilə ərzi heyrətə saldı,

Hikmət oldu, sehir oldu dünyada,
Bilən oldu, mahir oldu dünyada!

Mövlud deyir siyasətdə Heydərin,
Ağlasığmaz şöhrəti var çox dərin.
Şeriyyətdə oldu Rəsul da zəngin,
Hər ikisi düha oldu dünyada,
Günəş yollu şüa oldu dünyada!

2006

## Nəğmə, uddular

### Xalq şairləri R.Rzaya, S.Vurğuna

Sərbəstdə Rəsul, hecada Vurğun,
Dağ yaratdılar.
Düşmədilər də bu yolda yorğun,
Ad ucaltdılar!

Hər biri coşqun, çağlayan həvəs,
Şeirdə yeni doğulan nəfəs,
Oldular oxşarsız, həm bənzərsiz,
Kama çatdılar!

Səddi yıxdılar, düzə çıxdılar,
Dərinliklərdən üzə çıxdılar.
Azərbaycandan ərzə çıxdılar,
Düz yol tutdular,
Nəğmə, uddular!..

2000

## Şəhərlərə qoy verilsin bu üç ad

Göyçay-Gəncə, iki çinar şəhəri,
Gül, çiçəkli iki bahar şəhəri.
Qürur, təmkin, dözüm, vüqar şəhəri.
Neçə şair bəxş elədi yurduma,
Şərəf, şöhrət, şan gətirdi adıma!

Biri Rəsul, biri Nigar, o biri,
Gənc yaşında sona yetdi səfəri.
Əli Kərim çox sevirdi şeiri,

Rəsul ata, Nigar ona anaydı,
Hər birini arxa, həyan, dağ saydı!

Onlar ona böyüklük də elədi,
Əli Kərimə uğurlu yol dilədi.
Əsl, gözəl ziyalı da belədi,
Halal olsun Rəsula, həm Nigara,
Nəhəngləri bəxş eləyən diyara!

Mövlud Teymur düzü-düzə caladı,
Bu şairlər hər biri bir qaladı.
Son sözünü bir arzuya dayadı:
Rəsulabad, Nigarabad, Əlabad...
Şəhərlərə qoy verilsin bu üç ad!

2002

## Deyir Rəsul Rzaya

Böyük şairdir dedi,
Heydər Rəsul Rzaya.
Dərin hörmət bəslədi,
Heydər Rəsul Rzaya!

Sənətini xoşladı,
Qüdrətini xoşladı.
Verdi neçə də adı,
Heydər Rəsul Rzaya!

Şairlərin xoşbəxti,
Əzəməti, zinəti, -
Söylədi sənsən qəti,
Heydər Rəsul Rzaya!

Dünya səni tanıyır,
Gücünü əzmin yayır.
Böyük fəxrsən deyir,
Heydər Rəsul Rzaya!

Əsl Vətən oğlusan,
Sərbəst ötən oğlusan.
Deyir haqqın yolusan, -
Heydər Rəsul Rzaya!

Dekabr 2008

## Heykəl qoyulsun

**Mütərəqqi şair Rəsul Rzaya**

Bakının ən geniş bir meydanında,
Rəsula möhtəşəm heykəl qoyulsun.
Olsun bir hədiyyə yüzilliyinə,
Dörd yanı çiçəklə, tər güllə dolsun!

Sevdi təbiəti, bu ana yurdu,
Baharda doğuldu, yazda doğuldu.
Hamı yaxşı bilir, yaxşı duyurdu,
Rəsul vətənpərvər, böyük oğuldu!

Geniş ürəyində kainat, cahan,
O yazdı, yaratdı ürəkdən, qəlbdən.
Haqsız təqiblərə sinə gərərək,
Bir kərə düşmədi ilhamdan, təbdən!

Tükənməz eşq ilə, məhəbbət ilə,
Vətənə, millətə xidmət elədi.
Onu ürəklərin ən sevimlisi
Halal iş, alın tər, zəhmət elədi!

Sevdi Ulu öndər böyük şairi,
Onu çox yüksək də qiymətləndirdi.
O, yazdı "Qızılgül olmayaydı"nı,
Müşfiqi təzədən şöhrətləndirdi!

Bakının ən geniş bir meydanında,
Rəsula möhtəşəm heykəl qoyulsun.
Olsun bir hədiyyə yüzilliyinə,
Dörd yanı çiçəklə, tər güllə dolsun!...

2010

## Nigar yüz yaşında elə Nigardı

Sənətkar qocalmır, şeir qocalmır,
Səxavət qocalmır, xeyir qocalmır.
Mövlud bir şairi öyür, qocalmır,
Nigar yüz yaşında  elə Nigardı,
Açan çəmənzardı, güllü bahardı!

Günəş gülüşündə, ay baxışında,
Ulduzlar iz qoyub cənnət daşında.
Nə fərqi dünyanın gah o başında,
Gah da bu başında Nigar, Nigardı,
Şair yüz yaşında bir sənətkardı!

Bir əsr keçsə də, gəlsə min əsr,
Sözü həmin sözdü, namərdi kəsir.
Mərdlər qələmində zirvədə gəzir,
Şahanə duruşla Nigar, Nigardı,
Ucalan Kəpəzdi, məğrur Qoşqardı!

Sənətkar ölməyir, şeir ölməyir,
Bunu bilən bilir, naşı bilməyir.
İlin yayı bilmir, qışı bilməyir,
Daş üstündə iz qoyan Nigar, Nigardı,
Əbədi  yaşayan bir sənətkardı!

2013

## Rəsul Rza başdadı

Yaşadığı mühitdə,
Deməyən söz qalmadı.
Tapıntısı qədərsiz...
Bir itiyi olmadı!
Söz dedi, söz bir tarix...
Yaddadı, yaddaşdadı,
Elə buna görə də,
Rəsul Rza başdadı!

2009

## Zamanla səsləşəcəksən
**Xalq yazıçısı Anara**

Əsrlər dolanıb, era bitəcək,
Yenisi başlayıb, sonu bitəcək.
Adın adlayacaq, daim gedəcək,-
Hər açan çiçəklə, hər bitən güllə,
Danışan dodaqla, nəğməli dillə!

Adın hallanacaq milyon əsrlər,
Adına qoşacaq dastan əsrlər.

Bir bayraq  olacaq sənli əsərlər,
Əldən düşməyəcək qəlbdə gəzəcək,
Hər yanda, hər yerdə dəbdə gəzəcək!

Açacaq sirrini Anar kim idi?
Müəllim, mühəndis, ya hakim idi.
Ürəklər oxuyan baş həkim idi,
Dərdə çarə, məlhəm səni biləcək,
Hər səni oxuyan yeni biləcək!

Dövrlə, zamanla səsləşəcəksən,
Ağızdan-ağıza sən düşəcəksən.
Qardaş, əhsən sənə, əhsən, böyüksən,
Böyüklük öyrəndik əsərlərindən,
Sevdik, səni sevdik bir də dərindən!

2008

## Böyük şəxslər yetişib

Gəncə, Ağdaş, Göyçaydan,
Böyük şəxslər yetişib.
Neçə şair, həm alim,
Kaman-səslər yetişib!

Habil şöhrət çələngi,
Rəsul ərzin nəhəngi.
Nigar bəyaz, ağ rəngi,
Saf nəfəslər yetişib!

Bəkir eşqə tuş kimi,
Od kimi, atəş kimi.
Elmə verib eşqini,
Ən baş, ən sər yetişib!

Fikrət Qoca Rəsulun,
Gedir həvəslə yolun.
Yazır sağın, həm solun,
Sənətdə nər yetişib!

Ağdaş,  Gəncə, Göyçaydan,
Ulduz, günəş, o aydan,
Gör nə qədər, ay atam,
Böyük şəxslər yetişib!

2008

## Böyük alim

**Akademik Bəkir Nəbiyevin səksən illiyi münasibətilə**

Sözdən xəzinələr yaradıb qoyub,
Namərdin, alçağın gözünü oyub.
Nə haqsıza uyub, nə haqdan doyub,
Ötsə qərinələr, keçsə əsrlər,
Onu  oxuyacaq bütün nəsillər!

Yaşa, böyük alim, böyük vətəndaş,
Hər yerdə hamıdan sən baş oldun,baş.
Səni Allah verib bu xalqa, qardaş,
İsmini  pozammaz əsrin tufanı,
Çünki dolaşırsan bütün cahanı!

Səksənə yol açdı, yüzə tərəfdi,
Onun yaşamağı xalqa şərəfdi.
Allah ömür versin bizə tərəfdi,
Ömrün uğurludu, Bəkir müəllim,
Dönməz qürurludu, Bəkir müəllim!

2010

## Xalq artisti Habil Əliyevə

Ağdaşdan çıxdı,
Dünyaya  baxdı.
Şimşək tək çaxdı,
Habil  Əliyev !

Oldu nur, işıq,
Həlim, xoş qılıq.
Ərzə yaraşıq,
Habil Əliyev!

Kaman əlində,
İnlər hər gün də.
Bütöv də, çin də,
Habil Əliyev!

Nəğmənin dostu,
Söndürməz odu.
Yandırar yadı,
Habil Əliyev!

Bir şux adamdı,
Qılıq adamdı.
Sadiq adamdı,
Habil Əliyev!

Xalqın istəyi,
Arzu, diləyi.
Olub ürəyi,
Habil  Əliyev!

2003

## Fikrət Qocanın yetmiş beş illiyinə

Rəsul Rza məktəbinin şagirdi,
Fikrət Qoca, yetmiş beşin mübarək.
Zəhmət çəkib qoydun geri illəri,
Bu hünərin, zəfər işin mübarək!

Bəhər verdi, bar gətirdi bağ-bağçan,
Alma, heyva, gilənarın, bal alçan.
Zirvələrdə  quş xəyalındır uçan,
Bu süzməyin, bu gərdişin mübarək!

Yorulmayan, usanmayan qanadsan,
Cəsarətsən, mətanətsən, səbatsan.
Sənətində Rəsul kimi ustadsan,
Ucalığın, yüksəlişin mübarək!

Mərd yaşadın, çaldın qılınc namərdə,
Sən gətirdin şeri, sözü həmdərdə.
Alqış olsun səndə olan qüdrətə,
Xoş adətin, xoş vərdişin mübarək!

Yaşa səni yüz il, min il, milyon il,
Qoy ucalsın şərəfinə ney, təbil.
Bu gün səni alqışlasın dodaq, dil,
Yubileyin, yetmiş beşin mübarək!
Bu gəlişin, bu gedişin mübarək!

2010

## "Qaytar ana borcunu"n müəllifi Göyçaylı şair Əli Kərimə

Anadan təsirli şeirlər yazdın,
Nə qədər nankora təsiri oldu.
Əcnəbi oğullar, qızlar tanıdım,
Bu böyük şerinin əsiri oldu!

Verə bilməyəndə ana borcunu,
Çəkdi ürəyində ağrı, acını.
Çox vaxtsız ağartdı qara saçını,
Sızlayan o göyü, o yeri oldu!

Görəndə anaya dönük çıxanı,
Dedi, birdəfəlik qoy çıxsın canı.
Kim ki, bu dünyada danır ananı,
Dünyanın bədbəxti, yesiri oldu!

Şair, qamçıladın vəfasızları,
Eşqə biganəni, şəfasızları.
Havaya gətirdin havasızları,
Şər getdi, yerində xeyiri qaldı!

Mövlud, müqəddəsdi ana dünyada,
Qalacaq, qalacaq həmişə yadda.
Qlaq Əli kimi biz də həyatda,
Desinlər nə gözəl şeiri qaldı!

1999

## Əbədi yaşar sənətkar

**Xalq yazıçısı Anarın bu günlərdə Heydər Əliyev ordeninə layiq görülməsi münasibətilə**

Ən böyük ordenə layiq görüldü,
Xalqın ən sevimli yazarı, Anar.
Qələmi həmişə haqqa işləyən,
Millətin qeyrəti, vüqarı, Anar!

Yarıb zülmətləri nura yol açdın,
Nə şərin, böhtanın dalınca qaçdın.

Kişilik səmtində gəzdin, dolaşdın,
Oldun kişilərin tutarı, Anar!

O şair ananın, şair atanın,
Hər qəlbə, ürəyə girib yatanın,
Şeirdən, nəğmədən dağ yaradanın,
Oldun yadigarı, baharı, Anar!

O əziz nəslinin iftixarısan,
Türk – oğuz nəslinin iftixarısan.
Bu yurdun – vətənin iftixarısan,
Sənət dağlarının Qoşqarı, Anar!

Aldın ordenini Ulu öndərin,
Axır ki, bilindi sənətin, yerin.
Sənə bir ərməğan olsun bu şerim,
Dünyanın əbədi yaşarı Anar!

2011

## Varis

Azərbaycan!.. Şirvan eli, torpağı…
Gör nə qədər isti olub qucağı.
Yetiribdir üç sənətkar ocağı,
Biri Rəsul, biri Nigar, birisi,
Bu böyüklər, bu ulular varisi!

Yetmək üçün xoş gününə, çağına,
Nə etmədi, eləmədi xalqına.
Nə elədi, düz elədi haqqına,
Biri Rəsul, biri Nigar, birisi,
Bu əbədi gur ocağın varisi!

Baxıb Ay da, ulduzlar da fəxr edir,
Arzusuna, istəyinə tez yetir.
Qəlb istəyən yerə ayaqlar gedir,
Biri Rəsul, biri Nigar, birisi,
Bu böyüklər, bu ulular varisi!

Üç qayadı, üç qaladı, üç qəsr,
Yaşadacaq haqqı, düzü min əsr,
Çünki böyük arzularla səsləşir,
Biri Rəsul, biri Nigar, birisi,
Bu əbədi gur ocağın varisi!

Mövlud Teymur bir günəşdir, ay deyir,

Coşqun dəniz, dərin ümman, çay deyir.
Peyğəmbərə, həm imama tay deyir,
Biri Rəsul, biri Nigar, birisi,
Bu böyüklər, bu ulular varisi!
2008

## Xalq şairi Nigar Rəfibəyliyə

Nigar nigaran deyil,
Qəmli, pərişan deyil.
Daim bizlədir hər il,
Dağ duyur, aran duyur,
Ürək duyur, can duyur!

Şairliyi bir yana,
Aşbazlığı şahana.
Gözəl anadır,ana,
Hansı əsasdır ayır,
Gücünü ellər yayır!

Ülvi gözəllik onda,
Intellekt, bilik onda.
Böyük şairlik onda,
Onu oxuyan deyir,
Bu dövran,zaman deyir!...

2009

## Torpaq oğlu

Söz ustadı Rəsul Rzaya

Sözün cəngavəri, şerin nəhəngi,
Poeziya adlı yerin nəhəngi.
Sənətdə xidmətin, xeyrin nəhəngi,
Şər sənin zəhminə bata bilmədi,
Fikirdən, qüssədən yata bilmədi!

Dəniz atan kimi çirkabı yana,
Sən də qolayladın bitabı yana.
Güc, qeyrət yaraşır dedin insana,
Dərin sözlərinlə dərya yaratdın,
Sən də söz dünyanda dünya yaratdın!

İz qoydun, izinlə gedən az oldu,
Sən yetən zirvəyə yetən az oldu.
Sən ötdüyün kimi ötən az oldu,
Sözün bülbül oldu, avazın qumru,
Yaşatdın şəstində əzmi, qüruru!

Palıd sənə baxdı, dönməz ər dedi,
Çinar sənə baxdı, şiri-nər dedi.
Göylər sənə baxdı, işıq, nur dedi,
Bu azad torpağın hür oğlu dedi,
Ellər torpaq oğlu, yer oğlu dedi!

2009

## Rəsul sevib Talıstanı

Rəsul Rzaya

Rəsul sevib Talıstanı,
Bu laləzar gülüstanı.
Deyib belə oba hanı
Azərbaycan torpağında!

Vurğun görüb vurğun olub,
Ova çıxıb yorğun olub.
Gah boşalıb, gah da dolub,
Azərbaycan torpağında!

Baba dağı baxıb ona,
Qardan sırğa taxıb ona.
Heyran olub camalına
Azərbaycan torpağında!

Rəsul sevib Talıstanı,
Bu mehriban el, obanı.
Doğma, əziz sanıb onu
Azərbaycan torpağında!

2002

## Gəncəm

Gör hara yollandım, gör hara getdim,
Həm yaxın, həm uzaq səfərə getdim.
Neçə doğma kəndə, şəhərə getdim,
Eşitdim xoş xəbər,soraq, a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

Əvəz istəmədin gül- çiçəyinə,
Günəşli göyünə, aylı göyünə.
Səsinə, ününə, hay-harayına,
Açmısan ellərə qucaq, a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

Axışan buludun sevinc yaşımdı,
Göydələn çinarın uca başımdı.
Sapandın düşməni vuran daşımdı,
Var əzmin, qüdrətin lap çox, a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

Sən Cavad xanlısan, Xudadat bəyli,
Zəkası avazlı, ürəyi neyli.
Nigar xanım kimi sənətə meylli,
Şeirdən salmısan bir bağ a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

Böyük Nizaminin yurdu, yuvası,
Olub ürəklərə ilham havası.
Göy gölün, Kəpəzin ömrün mənası,
Olub sənə daim dayaq, a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

Gəncə gənc ürəkli, gənc nəfəslidir,
Büllur bulaqlıdır, çay həvəslidir.
Babək haraylıdır, Qorqud səslidir,
Günü xoş, həyatı dümağ, a Gəncəm,
Olmusan ucalan bir dağ, a Gəncəm!

2002

## Nigar Rəfibəylinin yüz illiyinə

Məhsəti, Natəvan, Heyran xanım tək,
Nigar Rəfibəyli el-el dolanır.
Oxunur yüz ildir ağızda, dildə,

Səsi külək-külək, yel-yel dolanır!

Aşır  Savalanı, Təbrizə çatır,
Xoşginab, Mərəndə, Səlmasa çatır.
Çoxa çox yetibdi, hər aza çatır,
Gəzir şana-şana, tel-tel dolanır!

Dinlənir həvəslə, dinlənir zövqlə,
Tükənməz arzuyla, tükənməz eşqlə.
Coşur Dəclə, Fərat, Dubay, Dəməşqlə,
Açır çiçək-çiçək, gül-gül dolanır!

Keçir Asiyanı, Turana çatır,
Gəzir Qərbi, Şərqi, Hind-Çinə çatır.
Məkkə, Mədinəyə, Yəmənə çatır.
Dinir dəniz-dəniz , sel-sel dolanır!

Nigar çiçək kimi gülzarlardadır,
Nəğmə tək ellərdə,  diyarlardadır.
Mövludun şerində, şüarlardadır,
Gəzir bayraq-bayraq, el-el dolanır,
Ölməz əsərləri əl-əl dolanır!

## Hər əsrin şairi

Ustad Rəsul Rzaya

Hər əsrin şairi,
Hər nəslin şairi,
Kök, əslin şairi,-
Rəsul Rzadır!

Milli şüurun,
Sonsuz qürurun.
Sahibi, sorun,
Rəsul Rzadır!

Təmiz yaşadı,
Əziz yaşadı,
Zirvədə adı.-
Rəsul Rzadır!

Çinar ömürlü,
Vüqar ömürlü,

Bahar ömürlü,
Rəsul Rzadır!

Yaşa, ey həyat,
Var ol, kainat.
Ən böyük ustad,
Rəsul Rzadır!

2008

## Xalq şairi Rəsul Rzaya

"Əziz Rəsul müəllim! Zəmanəmizdə ən çox hörmət bəslədiyim şairlərdən biri də sizsiniz. İlhamlı təfəkkürünüz üçün, obrazlarınız üçün Sizə təşəkkür edirəm".

**Çingiz Aytmatov**

Həqiqi yerində deyilən sözdü,
Itirməz yükünü, öyülən sözdü.
Bu gün də təzədi, geyilən sözdü,
Əyinə qəttəzə kostyum kimi!

Dahi dahi haqda haqq da danışdı,
Çox təmiz danışdı, ağ da danışdı.
Sağlam da danışdı, sağ da danışdı,
Əsil- zatım kimi, kök-soyum kimi!

Verdi qiymətini o verdiyi tək,
Bu yer də, bu göy də min sevinərək.
Oldu hər döyünən ürəkdə ürək,
Günəşim,Ulduzum, bədr Ayım kimi.

Dekabr 2008

## Böyük ustad Rəsul Rzaya

Hər sözü, misrası bulud düzümü,
Yağdı yağış ilə yudu düzümü.
Vurdum söz bağına, vurdum özümü,
Gördüm behişt burda, cənnət burdadı!

Rəngbərəng çiçəklər, rəngbərəng güllər,
Mehriban baxışlar, şipşirin dillər.

Ağlımı başımdan alan  gözəllər,
Gördüm sevgi burda, ülfət burdadı!

Çaşdım möcüzələr möcüzəsində,
Sükunət boğuldu dərya səsində.
Əridi duman, sis, çən nəfəsində,
Gördüm əzm burda, vüsət burdadı!

Dağ dağ yerindədi, sədd sədd yerində,
Səngər yerindədi, sərhəd yerində.
Savalan yerində, Səhənd yerində,
Gördüm hicran burda, həsrət burdadı!

Mövlud dövrə vurdu söz dənizində,
Min tarix yaşayır cığır, izində.
Yeganə şairdir bu yer üzündə ,
Gördüm sehir burda, hikmət burdadı!

2009

## Qəlbində apardı o Nigarını

Ürək ağrısıyla vəsf eləyirəm,
Bir şair ömrünün ruzigarını.
Allah dərgahına, haqq dünyasına,
Qəlbində apardı o Nigarını!

Xəbərsiz bir gediş, yollanış oldu,
Ölümə nə inam, nə barış oldu.
Nigarın dilində yalvarış oldu:
Hanı, Rəsul Rza, andı yarını!

Ürəyi tutuldu, gözləri doldu,
Fikir dünyasında fikiri dondu.
Çiçəkli bir yazdı, bahardı andı,
Dağıtdı qəmini o, qubarını!

Bilmədi neyləsin, nə çarə etsin,
Dura da bilməyir yanına getsin.
Elə Rəsul, - dedi, - kəsmədi səsin,
Ayıra bilmədi candan canını!

O da Rəsulundan xəbərsiz getdi,
O, sakit, həm səssiz-səmirsiz getdi.

Bir dəniz dalınca bir dəniz getdi,
Getdi bəzəməyə məzarıstanı!

May 2009

## Rəsul Rza yaşayır

Rəsul yazır, yaradır,
O ölməyib, yaşayır.
Yaxşıya yaxşı, pisə,
Nifrət deyib, yaşayır!

Sevgiyə uca deyir,
Çətini bacar deyir.
Asanı açar da, bil,
Hər fərd deyib, yaşayır!

Qol-boyun ol haqq ilə,
Alnı açıq, ağ ilə.
Sal yolunu, bağ ilə,
Hər vaxt deyib, yaşayır!

Ətirli gül, çiçək ol,
Od-alovlu ürək ol.
Elə arxa, kömək ol,-
Sərvaxt deyib, yaşayır!

O, bu gündü, sabahdı,
Arzu, kamdı, muraddı.
Xoş həvəsdi, ovqatdı,
Həyat deyib, yaşayır!

2010

## Gərək Rəsul kimi şair yüz ola

Şeir bağçasında çiçək çox azdı,
Ətirli çiçəkdən göyçək çox azdı,
Xaqani, Məhsəti, Nizami azdı,
Fizuli, Xətai, Nəsimi azdı!
Süleyman, Kürçaylı, Vurğun da azdı,
Yoruldum deyən də, yorğun da azdı!
Gərək Rəsul kimi şair yüz ola,
Hələ deyilməyən təzə söz ola,

Şeirdə, sənətdə sözü düz ola!
Şeir həqiqəti, düzü sevəndi,
Sabir tək şairə, şəxsə güvəndi!

1999

## Mütəfəkkir şair Rəsul Rzaya

Həqiqət həqiqət, gerçək gerçəkdi,
Anlayan, qavrayan, duyan ürəkdi.
Danışan Tanrıdı, dinən mələkdi,
Fikirlər hədəfə dəyən fikirdi!

Nəğmələr, şeirlər, nə bilim, nələr...
Bir sərgi salonu istəyən bilər,
İnsana, vətənə o nələr dilər...
Şəklin müəllifi Rəsul çəkirdi!

Yerdə güllər bilir, göydə də ulduz,
Uzanan üfüqlər, sonsuzdu, sonsuz.
Sənət nə olardı bir deyin onsuz,
Şimşək nərə çəkdi, bulud hönkürdü!

Mövlud yekun vurdu bu deyimlərə,
Əl çaldı sənətə, əl çaldı şerə,
Diz çökdü ucalıq önündə yerə,
Dedi dahi şair, mütəfəkkirdi!

2008

## Ən böyük şair

Mənə sual verdilər:
        Dünyanın ən böyük şairi  kimdi?
Dedim ki, mənimçün
        Göyçaylı  Rəsul ərzdi, aləmdi!
Çünki dünyada
        dünya haqqında yazanlardan
                                biridir Rəsul,
Dünən də, bu gün də, sabah da
        şeriylə, sözüylə
                                diridir Rəsul!
Bir də söylədim, ən böyük şair,

bilin,Rəsuldu,
Dedilər cavab əladı, oldu!

2007

## Şair Müzəffər Şükür Məchul
### Rəsul Rza haqqında

“Dili zəngindir, zəngin,
Şeri əngindir, əngin.
Sözü kəskindir, kəskin,
O, dostuydu məsləkin,
Böyük şair Rəsul Rza”-
Dostum Müzəffər dedi,
Çaldı min zəfər dedi!
Pislə barışmaz idi,
Bədə qarışmaz idi.
Doğruya muraz idi,
Kür idi, Araz idi,
Böyük şair Rəsul Rza,-
Dostum Müzəffər dedi,
Olub bir hünər dedi!
Çəkinmədi kimsədən,
Nə polisdən, hakimdən.
Daim yalanı söydü,
Rüşvət alanı söydü,
Qane oldu o, aza!
Böyük şair Rəsul Rza,
Sözdə mahir Rəsul Rza,-
Dostum Müzəffər dedi,
Olub hünərvər dedi!
Azad dedi sözünü,
İtirmədi özünü.
Sovetə yaranmadı,
Kimsə məğrurluğunu,
Qatlayıb qıranmadı!
Sözü mərdanə dedi,
Millətinin xeyrinə!
Həm də dərdanə dedi!
Böyük şair Rəsul Rza,-
Dostum Müzəffər dedi,
Axşam, həm səhər dedi!
Təmiz ömür elədi,
Nəfis ömür elədi!

Nə dedisə düz dedi,
Böyük şair Rəsul Rza,-
Dostum Müzəffər dedi,
Yox yalana yer dedi!
Sağ ol, dostum Müzəffər,
Həqiqəti söylədin.
Əsl mərddi söylədin,
Rəsula Rəsul dedin!

2004

## Kaş

Xalq yazıçısı Anara

Kaş bütün insanlar olaydı sən tək,
Mülayim, sadədil, ürəyi kövrək.
Onda dünyamız da geyərdi ipək,
Əlini biryolluq çəkərdi bezdən!

Girərdi qumaşa, yaşıla, ala,
Irəli gedərdi, qalmazdı dala.
Bir dərd şələsi də almazdı dala,
Keçərdi yaxşılar keçdiyi izdən!

Yolu düz olardı, hamar olardı,
Saçı dağınıq yox, tumar olardı.
Boylar –buxunlar da şumal olardı,
Onda qozbellər də düşməzdi gözdən!

Həqiqət - həqiqət, düz-düz olardı,
Gecələr çevrilib gündüz olardı.
Daim gülümsəyən üz-üz olardı,
Sızıltı, ah-nalə qaçardı bizdən!

Sevinc qanad açıb gözdə süzərdi,
Yanağa inci, zər, gövhər düzərdi.
Bəxtəvər-bəxtəvər ürək gəzərdi,
Sinədə qovrulub yanmazdı közdən!

Kaş bütün insanlar olaydı sən tək,
Mülayim, sadədil, ürəyi kövrək.
Onda dünyamız da geyərdi ipək,
Əlini biryolluq çəkərdi bezdən!

2009

## Eləyir

Xalq şairi Rəsul Rzaya

Qarışdı səhərə, günlü gündüzə,
Boylandı o üzə, baxdı bu üzə.
Gördü Araz axır, sel çıxıb dizə,
Ürəyi ağrıdı, gözü yaşardı,
Hələ də gördü ki sazaqdı, qardı!

Rəsul həqiqəti görüb də getdi,
Pislərə həcvlər hörüb də getdi.
Nə Araz göyərdi, nə də bağ bitdi,
Quraqlıq hələ də davam eləyir,
Bunu Qarabağda şeytan eləyir!

2009

## Anlamaq dərdi

Xalq yazıçısı Anara

Yanan yanmaza quldu,
Qanan qanmaza quldu.
Anan anmaza quldu,
Anlamaq dərdidir bu!

Kimə açıb deyəsən,
Hara qaçıb deyəsən.
Kimi deyib öyəsən,
Anlamaq dərdidir bu!

Mövlüd, yaxşı hardadı,
Insan naxşı hardadı?!
Bəlkə yağış, qardadı,
Anlamaq dərdidir bu!

1998

## Ötkəmlik

Əvəzi yola saldıq, xəstəliyi diabet,
Dünən Mikalsız qaldıq, xəstəliyi diabet.
Dörd yanını su oymuş qaya kimi durmuşam,
Çatar bir gün mənə də, lakin bir belə növbət.

**Rəsul Rza**

Hərədə bir cürdür Allah verən dərd,
Birində yumşaqdır, birindəsə sərt.
Kimi ürəyini tutur, ay aman...
Ölür... Başdaşını yazır da zaman!
Təzyiq məni tapdı, girəvələdi,
Dedim, mən insanam bu nə tələdi?!
Rədd ol, rədd ol,- dedim, çıx, get canımdan,
Mən şair adamam,ürək adamı,
Getdi, mənə qoydu xoş arzu,kamı!
Bir də dönüb gəldi, sıxdı başımı,
Gördü ki, qaldıra bilmir daşımı.
Gördü Nizaminin əzmi məndədir,
Sabiri, Seyid Əzimi məndədir!
Qələmimi alıb getmək istədi,
Gördü Koroğlunu əlində qılınc,
Hücuma hazırdır Qırat üstədi!
Qan təzyiqli sıxıntını saymıram mən,
saymıram mən!
Bu mərəzi tapdalayıb keçirəm.
Bundan betər paxıllığı demirəm,
Nanəcibi, nadanlığı demirəm!
Hərədə bir cürdür Allah verən dərd,
Mən dava-dərmanı eləyirəm rədd!
Şeir içirəm, şeir içirəm dava-dərman
yerinə,
Nizami evinə gedirəm yenə!
Mərdlik yazıb ünvanımı, yerimi,
Heç nə kəsməz Nəsimi tək dərimi.
İnsan ömrü nur, işıqla doludu,
Təmiz,ülvi yaraşıqla doludu.
Kim deyir ki, insan ömrü bir andı,
Hər bir andan doğulan şir,azmandı!
Qaranlıqdan, cəhənnəmdən, gor-yerdən,
Alnı açıq çıxıram da bilin mən!
Hərədə bir cürdür Allah verən dərd,
Qan təzyiqim getdi, oldu məndən rədd!
Gördü öndə Rəsul Rza, Səməddi,
Arxada da duran Nazim Hikmətdi!
2007

# Ulular

Atasını, anasını atmadı,
O, anasız, o, atasız yatmadı.
Hey çağırdı gedib səsi çatmadı,
Cənnətdədir ana Nigar, ər Rəsul,
Qulağına bir səs gəldi: Can oğul!...

Elə bil ki yanındayıq. yanında,
Xiffət çəkmə, xəstələnər canın da,
Boş keçməsin azca vaxtın, anın da!
Oxumağı, yazmağı sən boşlama,
"Anam hanı?!. Atam hanı?!. başlama...

Fikiri qov, qüssəni qov, qəmi qov,
Gün arzula, lazım deyil qar, qırov,
Ürəyinə yaxın elə kefi, ov,
Oxşa gülü, tər çiçəyi, laləni,
Yurdu qalıb, haraylama lələni!

Ölüm haqdı, çıxmamışıq əmrindən,
Keçdik ömrün daş yolundan, dəmrindən.
Namərdləri vurduq, yıxdıq sərindən,
Mərd yaşadıq, comərd ömür elədik,
Yaxa cırdıq, nə səs-səmir elədik!

Mövlud dedi, ürəyinə gələni,
Arzusuna, diləyinə gələni.
Uluları unutmayır vətəni,
Bağça sanır, meydan sanır, bağ sanır,
Şeir, sənət aləmində dağ sanır!

2006

## Hər zamanla səsləşir

Xalq şairi Rəsul Rzaya

Doğrudan da, hər sözündə, şerində,
Hikmət yatır, məna yatır dərin də!..
Söz desəm də, deməsəm də yerində,
Rəsul zirvə, Rəsul uca, Rəsul dağ.
Oxu onuənginliyə, göyə qalx!

Təmkin idi, dözüm idi, güc idi,
İşıldayan, parıldayan bürc idi.
Xaric idi, daxil idi, iç idi,
Rəsul vətən,Rəsul torpaq,Rəsul el,
Bu nəğməni qoy oxusun əsən yel!.

Dünya bilsin, aləm bilsin, ərz bilsin,
Bilən bilsin, görən görsün, göz bilsin.
Ürək bilsin, əl-qol, ayaq, diz bilsin,
Rəsul ərən,Rəsul igid, Rəsul ər,
Sevir onu şeri, sözü sevənlər!

Mövlud təkcə öymür onu, el öyür,
Varlıq öyür, yoxluq öyür, dil öyür.
Ümman öyür, dərya öyür, sel öyür,
Rəsul azman, Rəsul aslan, Rəsul şir,
Şeri, sözü hər zamanla səsləşir!

2009

## Sözün gücü

Sözü işlət yerində,
Olsun qüvvət yerində.
Dağ aşırsın siqləti,
Əzəməti, qüdrəti!
Deməsinlər gücsüzdü,
Kəsərsiz, ülgücsüzdü!
Vurğun sirrini dedi,
Rəsul dərini dedi!..
Ona görə söz qalxdı,
Uca zirvədən baxdı!

2006

## Bir də dilədim

Böyük  şair Rəsul Rzaya

Nə qədər oxusam az oxumuşam,
Payız, qış, bahar, yay, yaz oxumuşam.
Möhkəm oxumuşam, saz oxumuşam,
Yenə oxumağa dəyər Rəsulu,
Ordadır şeirin, sənətin yolu!

Nələr öyrənmədim,əxz eləmədim,
Bu öyrənmək də bəs eləmədi.
Onu oxumağı bir də dilədim,
Hər oğla, hər qıza, gəncə, cavana,
Şair xalqı olan Azərbaycana!

2010

## Olar sənə də əziz

Xalq şairi Rəsul Rzaya

Dərin fikir, təzə iz
Onda çoxdur, əvəzsiz...
Sənət planetində
O, ümmandır, o, dəniz!

Hər söz damlası qızıl,
Növbəyə dayan, yazıl,
Al oxu onu hazır,-
Yeni ləpir, yeni iz !...

Təntiməzsən yoxuşda,
Büdrəməzsən enişdə,
Olar qəlbin geniş gə,
Kefin qalxar, olar yüz!

Şerə alqış deyərsən,
Həmdəm, sirdaş deyərsən,
Ən uca, baş deyərsən,
Olar sənə də əziz!

2009

## Xalq şairi Fikrət Qocaya

Fikrət Qoca şair olub,
əsl şair,
Yetişdirib onu köhnə
nəsil şair,-
Böyük, dahi Rəsul şair!
Olub indi şirin kəlam,
məsəl şair.
Dildə gəzir,
eldə gəzir,
Şəki, Gəncə,
Naxçıvanda,
Şirvan, Muğan,
Mildə gəzir,
əsl şair,
gözəl şair!
2005

## Şair Rəsul Rza idi

Böyük ürək, duyan ürək,
Deyin, vardır kimdə görək?
Təmənnasız edən kömək,
Şair Rəsul Rza idi!

Doğulmuşdu qayğı üçün,
Sevgi üçün, saygı üçün.
Minnətdarıq duyğu üçün,
Şair Rəsul Rza idi!

Dastan idi fikri, sözü,
Roman idi bütöv özü.
Yanar ocaq, kösöv, düzü,
Şair Rəsul Rza idi!

Nə etmədi az ömürdə,
Çiçək, bahar, yaz ömürdə!
Açan cığır, iz ömürdə,
Şair Rəsul Rza idi!

Mövlud Teymur nə var dedi,
Qeyrət, dözüm, vüqar dedi.

Daim yaşar, yaşar, - dedi,-
Şair Rəsul Rza idi!
Şair Rəsul Rza idi!..

**2009**

## Rəsul Rzanın yüz illiyinə

Dünyanı anlamaq, duymaqdan ötrü,
Anıb gözəlliyi doymaqdan ötrü,
Vətənə məhəbbət qoymaqdan ötrü,
Rəsulu oxu!

Oxuduqca sehir, əfsun olarsan,
Ən dəyərli məna,məzmun olarsan.
Hər bir çətinlikdən üstün olarsan,
Rəsulu oxu!

Dağların qüdrəti, əzmi ordadı.
Füzuli səbiri, dözmü ordadı.
Sabirin qeyrəti, nəzmi ordadı,
Rəsulu oxu!

Oxuyan demədi, doydum bircə yol,
Tanrıya o yoldur gedən, məncə, yol.
Məndən söyləməkdir, buna qail ol,
Rəsulu oxu!.

2010

## Rəsul, Nigar sevgisindən güc aldı

Rəsul, Nigar sevgisindən güc aldı,

Əsrimizin hər oğulu, hər qızı.

Bu sevgini uca tutdu, ucaldı,

Əsrimizin hər oğulu, hər qızı!

Sevən qəlblər can dedi, can eşitdi,

Qəm-qüssəni, dərd-möhnəti kiritdi.

Arzusunu, istəyini yeritdi,

Əsrimizin hər oğulu, hər qızı!

Məhəbbətdə, sevgidə düz oldular,

Alnı açıq, xoş, gülər üz oldular.

Bir-birinə həyan, həm göz oldular,

Əsrimizin hər oğulu, hər qızı!

Rəsul, Nigar iki böyük sevgi, yar,

Sevənlərə örnək oldu, duydular...

İnsafı da yaxşı bir şey saydılar,

Əsrimizin hər oğulu, hər qızı!

Qarşılıqlı münasibət gördülər,

Bir-birindən xoş unsiyyət gördülər.

Gözəl sevgi, saf məhəbbət gördülər,

Əsrimizin hər oğulu, hər qızı!

Mövlud Teymur yaşa dedi sevgiyə,

Məhəbbəti duyan qəlbə, ürəyə.

Boylandılar xoş arzuya, diləyə,

Əsrimizin hər oğulu, hər qızı!

2009

## Şairlərin şairi Rəsul Rzaya

Şairlərin şairi,
Olub dillər əzbəri.
Görünür hər vaxt yeri,
Sənətdən söz düşəndə!

Doğru, həqiqət olur,
Sevgi, sədaqət olur.
Dostluq, xoş ülfət olur,
Hörmətdən söz düşəndə!

Ay doğur, ulduz doğur,
Zülməti işıq boğur.
Açılır yol, iz,cığır,
Qüdrətdən söz düşəndə!

Şairlərin şairi,
Yazıb göyü, həm yeri.
Qanad açır şeiri,
Vüsətdən söz düşəndə!

Mövlud Teymur şairi,
Sanır taxtda şah yeri.
Alqışlayır zəfəri,
Şöhrətdən söz düşəndə!

2008

## Qayıdacaq səfərdən

Yenilikçi şair Rəsul Rzaya

Rəsul Rza öndərdir,
Haqq səmtdədir, yöndədir.
Şəhərdədir, kənddədir,
Qayıdacaq səfərdən!

Yollar yorğunu olub,
Dostu, həyanı olub;
Vurğun vurğunu olub,
Oxuyurlar şeirdən!

Vurğun deyir, ay Rəsul,
Yoxdu sənə tay, Rəsul.

Parlaq şerin Ay.. Rəsul,
İşıq saçır səhərdən!

Qaranlıqdan çıxmışıq,
Çaylar kimi axmışıq.
Hara gəldi baxmışıq,
Bəsdi gedək bu yerdən!

Yox, ay Səməd, mən necə,
Gündüzəm, olum gecə!?
Mənə versən hər neçə,
Getmərəm ulu yerdən!

Qızıl kimi vətənim,
Gülüstanım, çəmənim.
İnan mənə, ol əmin,
Getmərəm güllü yerdən!

Bəli, Rəsul öndədir,
Haqq səmtdədir, yöndədir.
Şəhərdədir, kənddədir,
Qayıdacaq səfərdən!

2008

## Anar yanan ürəkdi

Kim nə deyir desin qoy,
Düzə əyri desin qoy.
Arpa, saman yesin qoy,
Anar halal çörəkdi,
Yanan, yanan ürəkdi!

O sınmadı heç vədə,
Şər atsa da hər gədə.
Söz dedi o, bir güllə,
O, bir zağlı tüfəngdi,
Əqidədə nəhəngdi!

Rəsul gedən düz yolu,
Sandı müqəddəs, ulu.
Sinəsi sözlə dolu,
Anar yaxşıya yandı,
Yamana da yamandı!

Allahını sevəndi,
Həqiqətə güvəndi.
Olub vallah, əfəndi,
Anar pirdi, ocaqdı,
Şər, böhtandan uzaqdı!

Düz yaşadı, düz oldu,
Haqqı görən göz oldu.
Şər deyənə köz oldu,
Anar çaxan şimşəkdi,
Daim yanan ürəkdi!

Kim nə deyir desin qoy,
Düzə əyri desin qoy.
Arpa, saman yesin qoy,
Anar halal çörəkdi!
Yanan, yanan ürəkdi!

2007

## Rəsul Rza, Səməd Vurğun sayağı

Fikrimdən fikrimə kömək istərəm,
Adına ustadım demək istərəm.
Şirin sözlü, dolu ürək istərəm,
Rəsul Rza, Səməd Vurğun sayağı!

Poeziyada cığır aça, yol aça,
Hər kəlməsi qanad aça, qol aça.
Desinlər ki, o, ucadı, çox uca,
Rəsul Rza, Səməd Vurğun sayağı!

Söz söyləyə, söz altında qalmaya,
Boş xəyala, boş fikirə dalmaya.
Bu dağlarda ola ağır sal qaya,
Rəsul Rza, Səməd Vurğun sayağı!

Yaxşıları şüar edə əlində,
Nəğmə bitə, şeir bitə dilində.
Dastan aça Azərbaycan elində,
Rəsul Rza, Səməd Vurğun sayağı!

2002

## Xoşbəxt diyar

Göyçayı ucaldan xan çinarı var,
Ona sirdaş olan övladları var.
Şərəfi, şöhrəti, fəxri, vüqarı, -
Rəsulu, Nigarı, həm Anarı var!

Udub havasını, içib suyunu,
Heç vaxt unutmayıb əsli, soyunu.
Göstərib aləmə mərdlik boyunu,
Vicdanı, qeyrəti, namus, arı var!

Olub yer üzündə bir əks-səda,
Nadanı, namərdi əzir dünyada.
Onları ariflər sezir dünyada,
Ali göstərişi, düz qərarı var!

Sözü oğurlamaq olmaz deyirlər,
Ona vurmaq calaq olmaz deyirlər.
Nə çiçək, nə bir gül solmaz deyirlər,
Nərgizi, reyhanı, gülaçarı var!

Xoşbəxtdir bu diyar, bu el, məmləkət,
Onda tükənməzdir şeir, həm sənət.
Rəsulu var-dövlət, Nigarı sərvət,
Anarı bir nemət, bitməz barı var,
Şərəfi, şöhrəti, güc, vüqarı var!

2006

## Sən xeyirxah insan kimi tanındın

Millətimizin, xalqımızın fəxri Anarın
yetmiş beş illiyinə

Qocalığı hələ alma boynuna,
Gözün görür, ağlın kəsir, a qardaş.
Korşalmayıb qılıncının qabağı,
Üstəlik dalı da kəsir, a qardaş!

Neylər sənə gürzə dili çıxaran,
Haqsız yerə böhtan deyən, pəl vuran.
Arxandadır möhtəşəm dağ, gen aran,
Səni göydən Allah süzür, a qardaş!

Sən düz oldun, haqq danışdın hər zaman,

Xalq yolunda hey çalışdın hər zaman.
Qüdrətinlə dağlar aşdın hər zaman,
Qədəminə Gün nur düzür, a qardaş!

Dərin zəkan, medrik ağlın bəllidir,
Hər bir kəlmən ətirlidir, güllüdür.
Səni sevən, türkü sevən ellidir,
Qazax, qırğız səni gəzir, a qardaş!

Millətləri qardaş sandın, dost bildin,
Çox sevildin hara getdin, sən gəldin,
Geniş, böyük ürəyinlə yüksəldin.
Macar, eston səni sezir, a qardaş!

Əsərlərin əl-əl gəzir, oxunur,
Əksin, adın xalçalarda toxunur.
Sənə Allah, tanrı əli toxunur,
El adından verir nəzir, a qardaş!

Heç dəyməsin sənə xətər dünyada,
Çəkməyəsən fikir, kədər dünyada.
Düşmənlərin çəksin zərər dünyada,
Qalsın müşkül, yetim-yesir, a qardaş!

Sən xeyirxah insan kimi tanındın,
Darda ocaq çatan kimi tanındın.
Anan kimi, atan kimi tanındın,
Yaşayacaq əsil, nəsil , a qardaş!

Arxalandın Türk soyuna, əslinə,
Dədə Qorqud haraylına, səslinə.
Məmmədxanlı, Xudadatlı nəslinə,
Salnamədir, həm bir fəsil, a qardaş!

Tariximiz sətir-sətir oxunur,
Rəsul Rza fəxr, Nigar bir qürur.
Nəsrimizdə Anar kimi şəxs durur,
Bunu ellər ötür dil-dil, a qardaş!

Nəğmədəsən, mahnıdasan, sözdəsən,
El içində, göz üstündə, gözdəsən.
Nəslinizin saldığı bir izdəsən,
Heç gəlməsin sənə bu sirr, a qardaş!

Fəxri oldun Azərbaycan yurdunun,

Harda olsan səni anan yurdunun.
Rəsul yazan, Nigar yazan yurdumun,
Tarixi var milyon əsr, a qardaş!

2013

## Xalq şairi Rəsul Rza haqqında dördlüklər

Məni başa düşən deyir, nəzər sal,
Rəsul dağlarına bir də güzar sal.
Gör rənglər nə dildə indi danışır,
Lalədən, nərgizdən, hildən xəbər al!

Unudan olmayıb uca dağları,
Möhtəşəm dağları, qoca dağları.
Ovudan olmayıb hələ deyirlər,
Rəsul tək dünyada haça dağları!

Əzəmət yanında əzəmət durur,
Rəşadət, mətanət, dəyanət durur.
Dağlar da fəxr edir, min qürur duyur,
Yanında Rəsul tək bir qüdrət durur!

Yaşa, yaşatmağı bacaran şair,
Qəlbi sevindirib, uçuran şair.
Dağda dağlılar da unutmur səni,
Aranda anıldın hər zaman, şair!

Vətən vətənsevər arzulayandı,
Yaxşını, yamanı üzdən duyandı.
Qırx birdən qırx beşə gedən döyüşdə,
“Bəxtiyar” şerinin üstdə dayandı!

Hünər hünər olur çətin ayaqda,
Zəfər zəfər olur çətin ayaqda.
Rəsulun hər sözü, hər bir kəlməsi,
Tutub əlimizdən çətin sınaqda!

2001

## Rəsul poeziya günləri münasibətiylə

Çoxdan olmalıydı Rəsul günləri,
Tər çiçək günləri, tər gül günləri.
Bu ürək günləri, könül günləri,
Hamı birağızdan alqış söyləyir,
Böyük sənətkara günaydın deyir!

Bunu əbəs yerə başlamadıq biz,
Bizi qınamasın dedik əslimiz.
Axı, dağ əbədi olub əzmimiz,
Hamı birağızdan alqış söyləyir,
Vüqara, qüdrətə günaydın deyir!

Haqq iş görüləndə xalq da bəyənir,
Doğru da bəyənir, haqq da bəyənir.
Zaman da bəyənir, çağ da bəyənir,
Hamı birağızdan alqış söyləyir,
Bu böyük birliyə günaydın deyir!

Yaşa, ömürlərə büsat gətirən,
Min ləzzət gətirən, min dad gətirən.
Xoş tale gətirən, həyat gətirən,
Hamı birağızdan alqış söyləyir,
Böyük sənətkara günaydın deyir!

2010

## Əsl şair

Böyük Azərbaycan şairi Rəsul Rzaya

Rəsul Rza az yaşadı, çox yazdı,
Ətirli bağ, gül, çiçəkli dağ yazdı.
Düşmənlərə vurdu neçə ox yazdı,
Əsl şair belə olar deyirəm!

“Qadan alım”, “can” deməyi kəsmədi,
Söz deyəndə yarpaq kimi əsmədi.
O, dünyanı boş-boşuna gəzmədi,
Əsl şair belə olar deyirəm!

Düz-dünyanı, çəmənzarı dolaşdı,
Fərhad, Şirin eşqi ilə hey daşdı.
Məslək üstdə düşməniylə tutaşdı,
Əsl şair belə olar deyirəm!

Əsl sevgi, əsl məhəbbət dedi,
Əhd, ilqar, gözəl sədaqət dedi.
Bütün ərzə şöhrət, şərafət dedi,
Əsl şair belə olar deyirəm!

Mövlud Teymur əhsən deyir Rəsula,
Kaş ki bəşər onun kimi doğula.
Könül kimi gah boşala, gah dola,
Əsl şair belə olar deyirəm!

2009

## Xalq şairi Nigar  Rəfibəylinin yüz illiyinə

Axır gəlib yüzə çatdı Nigar da,
Cəhalətə çaldı zəfər yenə də.
Deyir, gülür, nəğmə yazır, oxuyur,
Qanad açır şeir, əsər yenə də!

Salamlayır onu dağ da, aran da,
Gəncə, Şəki, Qazax, Muğan, Şirvan da!
Ceyrançöldə ötür onu çoban da,
Şerin əzbər deyir əsgər yenə də!

Yorulmayır, usanmayır çinar da,
Sevincindən uçur palıd, küknar da.
Hər şerindən ətir gəlir baharda,
Ötür onu reyhan-dilbər yenə də!

Baş ucaldır,üz ağardır hər sözü,
Nurlandırır hər bir şeri tor gözü.
Böyük şair bir loğmandır lap düzü,
Zəm-zəm şeri olub kövsər yenə də!

Tez anlayır ellər onu hər zaman,
Düşündürür oxuyanı hər zaman.
Belə olur mütəfəkkir, bir inan,
Alqışlayır onu dillər yenə də!...

## Görək kimdi Rəsul Rza

(Lirik poema)

Mən bilirəm oğlu kimi
çox insana əl yetirib,
arxa durdu Rəsul Rza.
Dağılmışı, tökülmüşü,
uçulmuşu tikdi,
qurdu Rəsul Rza!
Həyat verdi,
ömür verdi ömrü sınıq
çox insana Rəsul Rza!
Əvəzində nə gördü o?!.
Tək-tək insan
başa düşdü yaxşılığı,
nəvazişi xoş qılığı!
Çoxu bunu dərk eləmir,
dərs eləmir,
görk eləmir,
Yekə-yekə danışır da,
cızığından çıxır bir az,
Harınlaşıb, lovğalaşıb
alışır da!..
Çörək verənin
çörəyini itirir də,
Zəhmətini, əməyini itirir də!
Artiq əli çatan kimi
dövlət, vara,
Var oynadır varlığını,
O göstərir kütlüyünü,
darlığını!
Heyif, insan, sona kimi,
səbr eləyib durmayırsan?!
Yaxşılara qala tikib
qurmayırsan,
Anlamırsan böyüklüyü!?
Kim kimin halına yanır?!
Aşıb daşan işini, gücünü
qoyub kənara,
Bir yetimin əhvalını
sorub, anır!
Heyif, dünya,
etibarmı qalıb sənə?!.
Gədələri-güdələri

insan edən,
Arxasınca düşüb gedən,
işini düzən,
qəmini üzən,
Bir insanın nə tez itdi,
unuduldu səxavəti,
elədiyi min hörməti!?.
Heyif, insan,
hələ durub ünvanına
ağız büzür,
şər deyirsən!
Anlamır ki, Nizamiyə, Füzuliyə,
Nəsimiyə, Xətaiyə
küfr edirsən!
Mat qalmışam bu dünyanın
gərdişinə, vərdişinə,
Deyirəm ki, belə niyə
olub insan?!
O əmdiyi südün,
bəlkə, çiyliyindən
olub, aman!
Məəttələm, dünya, sənə,
aləm, sənə!
Alıb məni fikir, ələm,
qəm tərkinə!
Dağ verəsən,
əvəzində təpəni də
görməyəsən!
Dəniz verib,
əvəzində ləpəni də
görməyəsən!
O, böyükdür,
deyil onun heç vecinə,
Unutsan da bil onu sən,
zaman çəkəcək kəcinə.
Yaşadacaq sənətkarı
bir əvəzsiz loğman kimi,
Dərdlilərin hər dərdinə
yanan kimi!
Bir "sağ ol"u qulağınla
eşitməyib görməyəsən!
Rəsul müəllim, Allah sənə
cansağlığı, uzun ömür
versin deyib görməyəsən!
Yazıq insan,

niyə qanmaz, dönük oldun,
Od-ocağı sönük oldun!
Vaxt dəyişdi,
zaman çöndü,
Ev yıxıldı, tavan çöndü!
Bir yenilik
eləmədin həyatında,
Yerə girdin göy atında,
Sayılmadın öz elində,
elatında!
Qaldın həmin xislətində:
xudbin, qanmaz,
dönük, sərsəm!
Yalan, böhtan deməyinlə
etmədin qəm!
Oldun yenə, üstəlik də
əlləm-qəlləm!
Bir də çətin düzələsən,
sındı qələm!
Kül başına olub, dünya,
Kərəksizin nə haldadır,
Dinir günün, ötür həftən
pis valdadır!
Kəs dilini, çərt ağlını
qanı çıxsın!
Cadu-piti elə ona,
qoy canından inkir-minkir,
əcüz-məcüz, cini çıxsın!
Yeni insan,
təzə insan
bəxş et bizim
ömrümüzə!
Bilsin kimdi Rəsul Rza,
Nə ölümdü,
nə itimdi Rəsul Rza!
Daim gözlər önündədir,
Şirin sözlər,
xoş nəğmələr ünündədir!
Nur-işıqla qoşalaşıb,
Bər-bəzəklə,
yaraşıqla qoşalaşıb!
Nizamiylə, Füzuliylə,
Nəsimiylə, Xətaiylə,
Sabir, Vurğun, Cavid,
Müşfiq,

ustad, ozan, min aşıqla
qoşalaşıb!
El içində, yurd içində,
mahaldadır,
Yenə əvvəlki haldadır!
O, qabaqda,
qanmaz hələ də daldadır!
Əqidədə,
kamaldadır Rəsul Rza,
Bizimlə bir addımlayır,
Şerimizdə,
Sözümüzdə Rəsul Rza!
Qəlbimizdə,
gözümüzdə Rəsul Rza!
2009

# Mündəricat


Azərbaycan şairləri ----------------------------------------------------------------
Zirvədi ---------------------------------------------------------------------------
Göyçay çinarları ------------------------------------------------------------------
Bir ocaqdan üç sənətkar çıxıbdı ---------------------------------------------
Girib canı dolaşdım ----------------------------------------------------------------
Yaşayır ---------------------------------------------------------------------------
Dövlət, sənət -----------------------------------------------------------------------
Nəğmə, uddular --------------------------------------------------------------------
Şəhərlərə qoy verilsin bu üç ad ----------------------------------------------
Deyir Rəsul Rzaya ----------------------------------------------------------------
Heykəl qoyulsun --------------------------------------------------------------------
Nigar yüz yaşında elə Nigardı --------------------------------------------
Rəsul Rza başdadı -----------------------------------------------------------------
Zamanla səsləşəcəksən --------------------------------------------------------
Böyük şəxslər yetişib ----------------------------------------------------------
Böyük alim ---------------------------------------------------------------------------
Xalq artisti Habil Əliyevə ------------------------------------------------------
Fikrət Qocanın yetmiş beş illiyinə ---------------------------------------------
"Qaytar ana borcunu"n müəllifi Göyçaylı şair Əli Kərimə ------------
Əbədi yaşar sənətkar -------------------------------------------------------------
Varis --------------------------------------------------------------------------------
Xalq şairi Nigar Rəfibəyliyə ------------------------------------------------
Torpaq oğlu -------------------------------------------------------------------------
Rəsul sevib Talıstanı ----------------------------------------------------------
Gəncəm -----------------------------------------------------------------------------
Nigar Rəfibəylinin yüz illiyinə ---------------------------------------------
Hər əsrin şairi ----------------------------------------------------------------------
Xalq şairi Rəsul Rzaya ---------------------------------------------------------
Böyük ustad Rəsul Rzaya ------------------------------------------------------
Qəlbində apardı o Nigarını ----------------------------------------------------
Rəsul Rza yaşayır ---------------------------------------------------------------
Gərək Rəsul kimi şair yüz ola ----------------------------------------------
Mütəfəkkir şair Rəsul Rzaya -------------------------------------------------
Ən böyük şair ------------------------------------------------------------------
Şair Müzəffər Şükür Məchul Rəsul Rza haqqında ------------------------
Kaş ---------------------------------------------------------------------------------
Eləyir ------------------------------------------------------------------------------
Anlamaq dərdi -----------------------------------------------------------------
Ötkəmlik ----------------------------------------------------------------------

**Ulular** ---------------------------------------------------------------------------
**Hər zamanla səsləşir** -------------------------------------------------------------
**Sözün gücü** ----------------------------------------------------------------------
**Bir də dilədim** -------------------------------------------------------------------
**Olar sənə də əziz** ----------------------------------------------------------------
**Xalq şairi Fikrət Qocaya** ----------------------------------------------------------
**Şair Rəsul Rza idi** ----------------------------------------------------------------
**Rəsul Rzanın yüz illiyinə** ---------------------------------------------------------
**Rəsul, Nigar sevgisindən güc aldı** ---------------------------------------------
**Şairlərin şairi Rəsul Rzaya** -----------------------------------------------------
**Qayıdacaq səfərdən** --------------------------------------------------------------
**Anar yanan ürəkdi** ---------------------------------------------------------------
**Rəsul Rza, Səməd Vurğun sayağı** ---------------------------------------------
**Xoşbəxt diyar** --------------------------------------------------------------------
**Sən xeyirxah insan kimi tanındın** ---------------------------------------------
**Xalq şairi Rəsul Rza haqqında dördlüklər** -----------------------------------
**Rəsul poeziya günləri münasibətiylə** ------------------------------------------
**Əsl şair** -------------------------------------------------------------------------
**Xalq şairi Nigar Rəfibəylinin yüz illiyinə** ------------------------------------
**Görək kimdi Rəsul Rza ( Lirik poema )** ---------------------------------------